AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

*Əlyazması hüququnda*

**KÖNÜL ALİM QIZI KƏRİMOVA**

# ŞİMALİ AZƏRBAYCANDA DULUSÇULUQ MƏMULATI İSTEHSALININ İNKİŞAF MƏRHƏLƏLƏRİ (ANTİK VƏ İLK ORTA ƏSRLƏR)

**5505.02-Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Arif Məhəmməd oğlu Məmmədov**
*tarix üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər**: **Vəli Baxşəli oğlu Baxşəliyev**
*AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru*

**Abuzər İbrahim oğlu Ələkbərov**
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı elmi müəssisə: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdindəki 5505.02-"Arxeologiya" ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən F/D 01.171 Dissertasiya Şurasının "____" _________ 2017-ci il tarixli iclasında saat " ___"-da keçiriləcəkdir.

**Ünvan: Az.1143, Bakı şəhəri, H.Cavid prospekti 115.**

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ___ " ___________2017-ci ildə göndərilmişdir.

**FD 01.171**
**Dissertasiya Şurasının**
**elmi katibi:** **Səfər Hüseyn oğlu Aşurov**
*tarix üzrə fəlsəfə doktoru*

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dulusçuluq sənəti ölkənin iqtisadiyyatı, onun təsərrüfat həyatı, əhalinin məişət və ideologiyası ilə bağlı olan sənət sahələrindəndir. Buna görə də, müxtəlif dövrlərdə dulusçuluq sənəti ənənələrinin, saxsı məmulatı nümunələrinin tədqiqi tarixi keçmişimizin hərtərəfli öyrənilməsi baxımından mühüm aktuallıq kəsb edir. Şimali Azərbaycan ərazisində tədqiq olunmuş, antik və ilk orta əsrlər dövrlərinə aid arxeoloji abidələrdən əldə edilmiş ən kütləvi maddi mədəniyyət nümunələri saxsı məmulatlarıdır. Odur ki, saxsı məmulatları və onların istehsal texnologiyasının öyrənilməsi qeyd olunan dövrlərin tarixini işıqlandırmaq baxımından böyük elmi əhəmiyyət daşıyır.

Şimali Azərbaycan ərazisində XIX əsrin sonlarından həvəskar tədqiqatçılar tərəfindən başlanılan, XX əsrin 20-ci illərindən isə arxeoloq alimlər tərəfindən geniş surətdə davam etdirilən arxeoloji qazıntılar nəticəsində əldə olunmuş xeyli sayda saxsı məmulatlarının tədqiqi, öyrənilməsi, onların qonşu regionlardakı artefaktlarla müqayisəli təhlili, yayılma arealının izlənilməsi, antik və ilk orta əsrlərdə dulusçuluq sənətinin inkişaf səviyyəsi haqqında müəyyən qədər geniş biliklərin əldə olunmasına imkan verir. Lakin bununla belə, antik və ilk orta əsrlərdə dulusçuluq sənətinin inkişaf mərhələlərinin müəyyənləşdirilməsi, bu mərhələlərin texnoloji prosesdə, həmçinin dulusçuluq məmulatının kəmiyyət və keyfiyyətində izlənilməsi, lokal variantların müəyyənləşdirilməsi, həm də son dövrlərin arxeoloji tapıntıları bu mövzuya qayıtmağı zəruri edir.

Şimali Azərbaycanda antik və ilk orta əsrlərdə dulus məmulatı istehsalının inkişaf mərhələlərinin ümumiləşdirilmiş şəkildə və son dövrlərdə aparılmış arxeoloji qazıntıların nəticələri nəzərə alınmaqla işlənilməsi dissertasiya mövzusunun aktuallığını şərtləndirən amillərdəndir.

Tarixi-arxeoloji baxımdan problemin düzgün həll olunması üçün XX əsrin əvvəllərindən başlayaraq Şimali Azərbaycanın ayrı-ayrı bölgələrində yerləşən abidələrdə aparılan arxeoloji qazıntıların nəticələri nəzərdən keçirilərək lazimi materiallar seçilmiş, əvvəlki tədqiqatların nəticələri və mülahizələrlə müqayisəli şəkildə təhlil edilmişdir. Bu zaman ərazinin daha qədim dövr arxeoloji mədəniyyətləri ilə irsi bağlılıq da diqqətdə saxlanılmışdır.

İstər antik, istər ilk orta əsrlərə aid saxsı məmulatı özündən əvvəlki və sonrakı saxsı məmulatından fərqlidir. Hətta eyni dövrün müxtəlif mərhələlərində belə bu fərqi izləmək mümkündür. Bu fərq əsasən saxsı məmulatının miqdarında deyil, onun texnologiyasında, xüsusilə formalaşdırılmasında daha aydın hiss olunur. Azərbaycanda qeyd etdiyimiz dövrlərdə dulusçuluq sənətinin texnologiyası haqqında ayrı-ayrı əsərlərdə fikirlər söylənsə də, hələ bu sahədə tədqiqat işlərinə ehtiyac çoxdur. Texnoloji prosesin müxtəlif pillələrində inkişaf mərhələlrinin müəyyən edilməsi, bu sahədə yaranmış tənəzzül və yüksəlişin səbəblərinin izlənilməsi də dissertasiya işinin aktuallığını şərtləndirir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya işinin xronoloji çərçivəsi e.ə. IV - eramızın VIII əsrlərini əhatə edir. Şimali Azərbaycan ərazisində aparılmış arxeoloji axtarışlar nəticəsində antik və ilk orta əsrlərə aid xeyli sayda abidə aşkara çıxarılaraq tədqiq olunmuşdur. Əldə edilmiş arxeoloji materiallar və toplanılan etnoqrafik məlumatlar həmin xronoloji çərçivədə geniş tədqiqat aparmağa imkan verir. Bu həm e.ə. IV əsrdə Albaniya dövlətinin yaranması, həm də VIII əsrin əvvəllərində ərəblər tərəfindən bu dövlətin varlığına son qoyulması ilə nəticələnən proseslərlə əlaqəlidir.

**Tədqiqatın obyekti.** Dissertasiya işinin tədqiqat obyektini Şimali Azərbaycanın antik və ilk orta əsr arxeoloji abidələrindən aşkarlanmış saxsı məmulatları təşkil edir.

**Problemin öyrənilmə dərəcəsi.** Şimali Azərbaycanda antik və ilk orta əsr dulus məmulatı istehsalının öyrənilməsi bilavasitə, bu bölgədə qeyd olunan dövrlərdə mövcud olmuş Qafqaz (Azərbaycan) Albaniyası dövlətinin tarixi və arxeoloji baxımdan tədqiqi ilə bağlıdır. Müxtəlif illərdə Şimali Azərbaycan ərazisində göstərilən dövrlərə aid xeyli sayda yaşayış məskəni və qəbir abidələrində arxeoloji tədqiqatlar aparılmış, əldə edilən saxsı məmulatı elmi süzgəcdən keçirilmişdir. Bu abidələrin və onlardan əldə olunmuş dulus məmulatlarının arxeoloji tədqiqi bir sıra monoqrafiya və məqalələrdə, konfrans materiallarında xronoloji baxımdan əksini tapmışdır.

Bu sahədə ilk tədqiqatlar XIX əsrin sonlarından başlanılmş və aşkar edilmiş arxeoloji materialların əksəriyyəti o, cümlədən saxsı məmulatları müxtəlif ölkələrin muzeylərinə göndərilmişdir. İlk vaxtlar Azərbaycan ərazisində aşkar olunan maddi mədəniyyət nümunələri Moskva Dövlət Tarix Muzeyinə və Qafqaz Muzeyinə (indiki Gürcüstan

Dövlət Muzeyi) təhvil verilmişdir. Hazırda Moskva Dövlət Tarix Muzeyində mühafizə olunan saxsı üçayaqlı qablar da fikrimizi təsdiq edir. Həmin qabların şəkilləri A.A.İessenin, sonra isə Ö.Ş.İsmizadənin tədqiqatlarında öz əksini tapmışdır.

Azərbaycanın antik və ilk orta əsr saxsı məmulatının öyrənilməsi baxımından Yaloylutəpədə, Mingəçevirdə, Ağsu-İsmayıllı, Qarabağ, Naxçıvan, Mil-Muğan, Şimal-Şərqi Azərbaycan ərazilərində aparılan arxeoloji qazıntıların əhəmiyyəti böyükdür.

2008-2014-cü illərdə "Cənub Şərqi Azərbaycan abidələrinin arxeoloji tədqiqi" ekspedisiyası tərəfindən bölgədə antik və ilk orta əsrlərə aid xeyli sayda yaşayış yeri və qəbir abidələri müəyyən edilərək qeydə alınmışdır. Bu abidələrdən əldə edilmiş maddi mədəniyyət nümunələrinin əksəriyyətini saxsı məmulatları təşkil edir.

Antik və ilk orta əsr saxsı məmulatının öyrənilməsində 1927-ci ildə V.M.Sisoyev tərəfindən Laçın rayonunda, İ.Meşşaninovun rəhbərliyi ilə Mil düzündə yerləşən küp qəbirlərdə başlanılan və sonrakı illərdə geniş miqyasda davam etdirilən bu abidələrin arxeoloji tədqiqi əhəmiyyətlidir.

Şimali Azərbaycan ərazisində, o cümlədən Qafqaz Albaniyasının tərkibinə daxil olan bəzi qonşu ərazilərdə aparılan arxeoloji tədqiqatların nəticələri antik və ilk orta əsrlərdə dulusçuluq sənətinin inkişaf mərhələlərini ardıcıl öyrənməyə imkan verir. Arxeoloji qazıntılar zamanı yaşayış yerləri və qəbir abidələrindən aşkar olunan ən kütləvi maddi mədəniyyət nümunəsi kimi saxsı məmulatına Qafqaz Albaniyasının öyrənilməsi ilə məşğul olan tədqiqatçıların demək olar ki, hamısı öz əsərlərində xüsusi yer ayırmışlar. Bu baxımdan Q.İ.İone, A.A.İessen, Ö.Ş.İsmizadə, R.M.Vahidov, Q.M.Aslanov, Q.M.Əhmədov, A.B.Nuriyev, R.B.Göyüşov, F.L.Osmanov, İ.A.Babayev, A.Ş.Orucov, Ə.H.Bədəlov, C.A.Xəlilov, Q.C.Cəbiyev, A.M.Məmmədov, A.İ.Ələkbərov, M.C.Xəlilov, V.A.Əsədov, Ə.H.Babayev, V.A.Qasımlı, T.T.Hüseynova və s. tədqiqatçıların əsərləri çox əhəmiyyətlidir. Lakin, bu əsərlərin heç biri antik və ilk orta əsr dulus məmulatlarının birgə öyrənilməsinə həsr edilməmiş, e.ə.IV-b.e.VIII əsrlərinə aid dulus məmulatı nümunələri ümumilikdə ayrıca bir tədqiqat mövzusu kimi götürülməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində əsas məqsəd ŞimaliAzərbaycanda antik və ilk orta əsrlərdə ən mühüm sənət sahələrindən olan dulusçuluq sənətinin inkişaf mərhələlərini tarixi-

arxeoloji baxımdan dərindən və kompleks şəkildə tədqiq etməklə elmi yeniliklər üzə çıxarmaqdır. Tədqiqat zamanı qarşıya qoyulan məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Arxeoloji-etnoqrafik materiallar, yazılı mənbələr və bu sahəyə aid elmi tədqiqatlara əsaslanaraq Şimali Azərbaycanın antik və ilk orta əsrlərdə dulusçuluq sənətinin inkişaf mərhələlərini sistemli araşdırmaq;
- Arxeoloji, etnoqrafik və müasir texnoloji yanaşmalarla dulusçuluq sənətində baş vermiş texnoloji dəyişiklikləri, texnoloji üsul və texniki vasitələri ardıcıl izləmək;
- Yeni arxeoloji materialların təhlilinə xüsusi diqqət yetirmək;
- Dulus məmulatlarının tipoloji təsnifatını və müqayisəli təhlilini aparmaq;
- Şimali Azərbaycanın antik və ilk orta əsrlərdə dulusçuluq məmulatlarının müxtəlif regionlar üzrə fərqliliklərini müəyyənləşdirmək və onun səbəblərini araşdırmaq;
- Saxsı məmulatlarının forma və naxışlanmasında baş vermiş dəyişiklikləri izləmək;
- Ölkənin təsərrüfat həyatında, əhalinin məişətində və dini mərasimlərdə dulus məmulatlarının rolunu müəyyənləşdirmək;

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiya işinin əsas mənbəşünaslıq bazasını Şimali Azərbaycan ərazisində antik və ilk orta əsr abidələrində aparılmış tarixi arxeoloji və etnoqrafik tədqiqatların materialları təşkil edir. Problemin əsaslı tədqiqi zamanı Azərbaycan Dövlət Tarix Muzeyinin Arxeologiya Fondunda, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeologiya Muzeyində və Elmi fondunda, Qəbələ, Şamaxı, Ağsu, Şəki, Oğuz, Şabran, Tovuz, Cəlilabad və Masallı rayon tarix diyarşünaslıq muzeylərində mühafizə edilən dulusçuluq məmulatlarından, ekspedisiyaların elmi hesabatlarından və inventar kitablarından geniş istifadə olunmuşdur. Tədqiqat işində, həmçinin antik və ilk orta əsrlərə aid yazılı mənbələrin məlumatları, yerli və xarici müəlliflərin tədqiqatları müqayisəli şəkildə əlaqələndirilərək araşdırılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işi Şimali Azərbaycanda antik və ilk orta əsr saxsı məmulatının kompleks şəkildə öyrənilməsinə dair ilk tədqiqat işidir. İlk dəfə olaraq antik və ilk orta əsr saxsı məmulatları ardıcıl olaraq qruplara bölünmüş, hər bir qrupun xarakterik xüsusiyyətləri aydınlaşdırılmışdır, antik və ilk orta əsr saxsı məmulatlarının müqayisələri aparılaraq bəzi ehtimallar dəqiqləşdirilmiş, oxşar və fərqli xüsusiyyətlər müəyyən edilmiş, yayılma arealı müəyyənləşdirilmiş, texnoloji proseslərdə baş verən dəyişikliklər izlənilmişdir.

**Tədqiqatın nəzəri və metodoloji** əsasını arxeoloji və etnoqrafik materialların təhlilinə müqayisəli yanaşma prinsipi, təsviri, təsnifat və sistemli elmi-analitik təhlil metodu təşkil edir. Araşdırma aparılarkən yeni elmi nəticələrə nail olmaq üçün bütün növ mənbə məlumatlarına, Şimali Azərbaycanın, eləcə də qonşu ölkələrin antik və ilk orta əsr abidələrinin öyrənilməsinə həsr olunmuş arxeoloji ədəbiyyata, tarixi və etnoqrafik tədqiqatların nəticələrinə kompleks şəkildə istinad edilmişdir. Müəllif problemi araşdırarkən son arxeoloji tədqiqatlara xüsusi diqqət yetirmiş, bu sahədə elmi hesabatlardan geniş istifadə olunmuş, arxeoloji materialların təsnifatı və təhlilində müasir prinsip və üsullara əsaslanmışdır.

**Tədqiqatın elmi-praktiki əhəmiyyəti.** Antik və ilk orta əsrlərdə dulusçuluq sənətin inkişaf mərhələlərinin tədqiqi əsasında əldə edilmiş elmi nəticələr aşağıdakı sahələrdə istifadə edilə bilər:

- Azərbaycan və ümumilikdə Qafqazın antik və ilk orta əsrlər tarixinə, arxeologiyasına aid ümumuləşdirilmiş əsərlərin yazılmasında;
- Çoxcildlik Azərbaycan tarixi və arxeologiyasının hazırlanmasında;
- Azərbaycan və Qafqaz arxeologiyasına dair dərslik və metodik vəsaitlərin tərtib edilməsində;
- Azərbaycanın antik və ilk orta əsr maddi mədəniyyət tarixinin işlənilməsində;
- Azərbaycanın sənətkarlıq tarixinə aid əsərlərin və albomların hazırlanmasında;
- Ali məktəblərin humanitar yönümlü fakültələrində ixtisas kurslarının tədrisində;
- Elmi-kütləvi nəşrlərin hazırlanmasında və s.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində hazırlanmışdır. Dissertasiyanın əsas müddəaları müəllifin müxtəlif elmi nəşrlərdə çap olunmuş məqalələrində və məruzə etdiyi konfransların məcmuələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat və qəbul olunmuş ixtisarların siyahısından ibarətdir. Tədqiqat işinə Şimali Azərbaycanın antik və ilk orta əsr abidələrindən aşkar edilmiş dulusçuluq məmulatlarının və dulus kürələrinin qrafik təsvirləri və fotoşəkilləri, həmçinin cədvəllər əlavə edilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın xronoloji çərçivəsi, tədqiqatın məqsəd və vəzifələri, mövzunun mənbəşünaslıq bazası, problemin obyektin, öyrənilmə dərəcəsi, tədqiqatın nəzəri-metodoloji əsası, elmi yeniliyi, tədqiqatın elmi-praktik əhəmiyyəti, dissertasiyanın aprobasiyası və dissertasiyanın quruluşu haqqında məlumat verilir.

Dissertasiya işinin **I fəsli "Şimali Azərbaycanda antik və ilk orta əsr dulus məmulatının tədqiqi"** adlanır. XIX əsrin son otuzilliyindən başlayaraq həvəskar arxeoloq və tədqiqatçılar tərəfindən Şimali Azərbaycan ərazisində ilk epizodik arxeoloji qazıntılar aparılmağa başlanılmışdır. XX əsrin 20-ci illərindən isə, geniş və sistemli şəkildə başlanılan arxeoloji tədqiqatlar Qafqaz Albaniyasının antik və ilk orta əsr yaşayış yerləri və xüsusən də qəbir abidələrinin ətraflı öyrənilməsinə şərait yaratmışdır. Bu baxımdan Şimali Azərbaycanın müxtəlif bölgələrində (Mingəçevir, Qəbələ, Xınıslı (Şamaxı), Naxçıvan, Qarabağ, Ağsu-İsmayıllı, Gəncəbasar, Mil, Muğan və s.) aparılan arxeoloji tədqiqatlar xüsusilə əhəmiyyətlidir.

1915-ci ildə Nic və Oğuz kəndlərində Qafqaz Albaniyası ərazisində geniş yayılmış, başlıca olaraq saxsı qab nümunələri ilə xarakterizə olunan, Yaloylutəpə mədəniyyətinə aid ilk arxeoloji qazıntı işlərinə başlanılmışdır. 1926-cı ilin yayında Azərbaycan Dövlət Tarix Muzeyi tərəfindən göndərilmiş ekspedisiya Qəbələ xarabalığını və Yaloylutəpə abidəsini yoxlamaq məqsədilə burada arxeoloji tədqiqatlar

aparmışdır. D.M.Şərifov "Yaloylutəpə qazıntıları" adlı məqaləsində saxsı nümunələrinə xüsusi diqqət yetirərək, onları rənglərinə görə iki qrupa bölmüşdür: qara rəngli və açıq-qırmızı rəngli qablar.

1937-ci ildə T.Passekin Muğan düzündə Cəfərxan kəndi ətrafında apardığı tədqiqat işləri nəticəsində alban mədəniyyətinə məxsus xeyli saxsı məmulatı əldə edilmişdir. Bu qabların Yaloylutəpə nümunələri ilə yaxınlığına əsasən,T.Passek onların təkcə formalarına görə yox, həm də hazırlanma texnikasına görə də oxşarlıq təşkil etdiyini yazmışdır.

1949-1950-ci illərdə İsaq Cəfərzadənin rəhbərliyi ilə Nic kəndi ətrafında yerləşən arxeoloji abidədə arxeoloji qazıntılar davam etdirilmişdir. Qazıntının nəticələri, həmçinin Yaloylutəpə abidəsindən əvvəllər əldə olunmuş bütün materiallar Ömər İsmizadənin 1956-cı ildə nəşr olunan "Yaloylutəpə mədəniyyəti" adlı monoqrafiyasında ətraflı şərh olunmuşdur. Ö.Ş.İsmizadə Yaloylutəpə mədəniyyətinin yayılma ərazisindən tapılmış qabları formalarına görə 15 tipə bölmüş, bu nümunələr əsasında arxeoloji mədəniyyətin dövrünü müəyyənləşdirməyə çalışmışdır. Əldə olunan maddi mədəniyyət nümunələrini digər abidələrlə müqayisəli şəkildə öyrənərək, abidənin e.ə. III-I əsrlərə aid olduğunu bildirmişdir.

Antik və ilk orta əsr saxsı məmulatının inkişaf mərhələlərinin öyrənilməsində küp qəbirlər və bu qəbirlərdən aşkar olunmuş saxsı məmulatı olduqca əhəmiyyətlidir. Ə.K.Ələkbərov Şimali Azərbaycan ərazisindəki küp qəbirlərin avadanlığı içərisində əsas yer tutan saxsı məmulatlarının formaca Yaloylutəpə keramikasına yaxın olduğunu bildirir. Tədqiqatçı bu tip qabların həmin ərazilərdən tapılmasının böyük əhəmiyyət kəsb etdiyini yazmış, eyni tip qabların Kürdən həm şimalda, həm də cənubda tapılmasını, bu mədəniyyətin geniş ərazidə yayılmasını, saxsı məmulatının istehsalında bir inkişaf mərhələsi kimi qeyd etmişdir.

1946-1953-cü illərdə S.M.Qazıyevin rəhbərliyi ilə Mingəçevir arxeoloji ekspedisiyası fəaliyyət göstərmişdir. Arxeoloji qazıntıların nəticələri S.M,Qazıyevin, digər arxeoloq alimlərdən Q.İ.İonenin, T.İ.Qolubkinanın, Q.M.Aslanovun, R.M.Vahidovun və s. elmi araşdırmalarında öz əksini tapmışdır. Bu tədqiqatçıların əsərlərində abidədən əldə edilmiş saxsı məmulatına da xüsusi yer verilmişdir. Mingəçevir tapıntılarına əsasən S.M.Qazıyev qeyd edir ki, burada digər istehsal sahələrinə nisbətən dulusçuluq daha yaxşı inkişaf etmişdir.

1958-1973-cü illərdə C.Ə.Xəlilovun rəhbərliyi ilə Xınıslı qədim yaşayış yerində, 1959-1963-cü illərdə R.M.Vahidovun Torpaqqalada

apardığı qazıntı işləri nəticəsində antik və ilk orta əsrlərə aid yerli əhalinin məişətini, təsərrüfatını və dini təsəvvürlərini əks etdirən xeyli abidə tədqiq olunmuşdur. Aşkarlanan arxeoloji materiallar içərisində yenə də üstünlük təşkil edən saxsı məmulatı əsasən əldə formalaşdırılmış müxtəlif rəngli qablardan ibarətdir. Qazıntılar zamanı Torpaqqalada sənətkarlar məhəlləsindən iki dulus kürəsi də aşkar olunmuşdur. Yerləşdiyi təbəqənin dulus məmulatına və stratiqrafiya dəlillərinə əsasən R.M.Vahidov bu kürələri III-VII əsrlərə aid edir.

1959-cu ildən Qəbələdə aparılan arxeoloji qazıntılar nəticəsində dulusçuluq sənətinin özünəməxsus inkişaf mərhələlərini əks etdirən məmulatlar R.Göyüşov tərəfindən xüsusi tədqiqata cəlb olunmuşdur. 1967-ci ildə İ.A.Babayevin rəhbərliyi ilə başlanılmış planlı arxeoloji qazıntı işləri 1990-cı ilə qədər Qəbələ ətrafında, xüsusən də qədim şəhər yerində müntəzəm olaraq davam etdirilmişdir.

İ.A.Babayevin rəhbərlik etdiyi Qəbələ arxeoloji ekspedisiyası (SEBA) Seul-Bakı. - (Azərbaycan-Koreya) Mədəniyyət Mübadiləsi Assosiasiyası ilə birgə 2005-ci ildən qədim Qəbələ şəhər yerində geniş arxeoloji qazıntılara başlamışdır. 2010-cu ildə Səlbir sahəsində aparılan tədqiqatlar nəticəsində, şəhərin son antik və ilk orta əsrlər dövrünə aid xeyli gil məmulatı ilə yanaşı, şəhər yerinin qərb divarı yanındakı qazıntı sahəsindən dulusçuluq kürəsinin qalıqları, kürənin divarlarına bərkidilmiş konusvari saxsı gil asılqanlar, qabları bişirərkən istifadə olunan kiçik üç ayaqlı altlıqlar və istehsal çıxarları tapılmışdır. 2011-2012-ci illərdə də Səlbirdə III qazıntı sahəsində aparılan tədqiqatlar zamanı gil qab bişirmə emalatxanası üzə çıxarılmışdır. Burada olan kürələrin ölçüsü çox böyükdür. Onların od yandırılan kameralarının yalnız döşəməsi və yan divarlarının ancaq alt hissəsi izlənilir. Qazıntının stratiqrafiyasına görə bu kürələr e.ə.III-II əsrlərə aid edilir.

Göyçay və Girdimançay hövzələrinin antik və ilk orta əsr abidələrinin F.L.Osmanovun rəhbərliyi ilə planlı arxeoloji tədqiqinə 1962-ci ildən başlanılmışdır. XX əsrin 60-80-ci illərində fəaliyyət göstərmiş Ağsu-İsmayıllı arxeoloji ekspedisiyasının apardığı qazıntılar nəticəsində Qafqaz Albaniyasının maddi mədəniyyətini geniş şəkildə öyrənməyə imkan verən materiallar əldə edilmişdir.

2003-cü ildə arxeoloq Q.C.Cəbiyevin rəhbərliyi ilə Ağsu-İsmayıllı ekspedisiyasının tədqiqatları Girdiman abidələrinin öyrənilməsində yeni mərhələ başlatmışdır. Ağsu rayonunun Bəyimli kəndi ərazisindəki Torpaqqala abidəsində, 2014-cü ildə Ağsu arxeoloji ekspedisiyası

tərəfindən geniş tədqiqatlar başlanılmışdır. Abidədən əldə olunan 255 ədəd maddi-mədəniyyət nümunəsinin 149 ədədi saxsı məmulatlarıdır. Aşkar edilən saxsı məmulatları öz orjinallığı ilə seçilir.

2004-2005-ci illərdə Bakı-Tibilisi-Ceyhan boru kəmərinin dəhlizində və həmçinin Cənubi Qafqaz qaz kəmərinin çəkilişi zamanı kəmər marşrutunun 200, 204, 241, 316, 335, 336, 406, 408,.8, 409.1-ci km-də tədqiq olunmuş bu abidələrdən antik və ilk orta əsrlərə aid xeyli saxsı məmulatı üzə çıxarılaraq öyrənilmişdir.

Dulusçuluq sənətinin yüksək inkişaf etdiyi bölgələrdən olan Naxçıvanın antik və ilk orta əsrlərə aid arxeoloji abidələrinin öyrənilməsi dulusçuluq sənətinin tarixini araşdırmaq baxımından olduqca əhəmiyyətlidir. XX əsrin 70-ci illərində V.H.Əliyevin rəhbərlik etdiyi Naxçıvan arxeoloji ekspedisiyası bölgədə antik dövrə aid bir sıra abidələr tədqiq etmişdir. 1979-1985-ci illərdə Əziz Novruzlu tərəfindən Albantəpə antik dövr yaşayış yerində arxeoloji tədqiqat işləri aparılmışdır. Püsyan antik dövr abidəsində 1987-ci ildə V.H.Əliyevin rəhbərliyi ilə kəşfiyyat xarakterli qazıntılar zamanı əldə edilən keramika məmulatı forma və xarakterik xüsusiyyətlərinə görə Yaloylutəpə, Şamaxı, Qəbələ, Mingəçevir, Cəfərxan abidələrinin antik dövr qabları ilə eyniyyət təşkil edir və e.ə. I minilliyin sonu – eramızın ilk əsrlərinə aid olunur.

“Antik Naxçıvan” ekspedisiyasının 2001-2003-cü illərdə Şahbuz, Babək, Culfa rayonları ərazisində qeydə aldığı abidələrdən Meydantəpədə daha geniş tədqiqatlar aparmışdır. 2013-2014-cü illərdə bu abidədə dulusçuluq emalatxanası istehsal sahəsinə aid tikili və içərisində təsərrüfat küplərinin qalıqları olan otaq aşkar edilmişdir.

2011-2013-cü illərdə Salyanda aparılan arxeoloji qazıtılar zamanı, Babazanlı (Baba Sənan) küp qəbirlər nekropolundan əldə edilən saxsı qablar, əsasən, bardaqlardan, matralardan, qazan, çaynik tipli qablardan, süddanaoxşar qablardan, onların ağzına qoyulmuş camlardan və s. ibarətdir. Onlar əldə hazırlanmış və çox yaxşı bişirilmişdir.

2012-2013cü illərdə Lerik rayonunun Gürdəsər kəndi ərazisindəki Piboztəpə nekropolunda aparılan tədqiqatlar nəticəsində, əldə olunan saxsı məmulatları xüsusi formalarına görə diqqət çəkir. Saxsı məmulatı dulus dəzgahı tətbiq olunmadan əldə hazırlanmış iri su qabları, küpələr, piyalələr, kasalar, zoomorf formalı qablardan ibarətdir.

A.Ş.Orucovun “İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq (IV-VIII əsrlər)”, Ə.H.Bədəlovun “Antik dövrdə Azərbaycanda dulusçuluq

sənəti (I-III əsrlər)" adlı monoqrafiyalarında, C.T.Eminlinin "Azərbaycanın ellinizm dövrü saxsı məmulatı (e.ə. IV-I əsrlər)" adlı dissertasiyasıya işində saxsı məmulatı təyinatına, formalarına və digər fərqli xüsusiyyətlərinə görə təsnif edilmiş, onların mənşəyi və yayılma arealı elmi cəhətdən izah olunmuş, baş verən dəyişikliklər izlənilmişdir. Müəlliflər dövrlər üzrə saxsı məmulatının istehsal texnologiyasına da xüsusi diqqət yetirmişlər.

Antik və ilk orta əsrlər saxsı məmulatı istehsalının öyrənilməsində arxeoloji materiallarla yanaşı, etnoqrafik məlumatların da böyük əhəmiyyəti vardır. Bu baxımdan son illərdə nəşr olunan üç cildlik "Azərbaycan etnoqrafiyası"nın birinci cildi, həmçinin etnoqrafiya sahəsində T.A.Bünyadov, A.K.Ələkbərov, S.M.Ağamalıyeva, A.H.Mustafayev və b. alimlərimizin tədqiqatları mühüm önəm daşıyır.

Beləliklə, son dövrlərədək Şimali Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntı və tədqiqatlar antik və ilk orta əsrlərdə dulusçuluq sənətinin inkişaf dinamikasını, texnoloji prosesi daha ətraflı, dərindən araşdırmağa imkan yaratmışdır.

Dissertasiyanın **ikinci fəsli "Şimali Azərbaycanda antik və ilk orta əsr dulus məmulatı istehsalında texnoloji xüsusiyyətlər" adlanır və** iki yarımfəsildən ibarətdir: **2.1.** Antik dövr saxsı məmulatının hazırlanma texnologiyası; **2.2.** İlk orta əsr saxsı istehsalının texnoloji xüsusiyyətləri. Burada arxeoloji və etnoqrafik materiallar əsasında dulus məmulatı istehsalı texnologiyasının mərhələləri haqqında ayrı-ayrılıqda məlumat verilir, antik və ilk orta əsrlərdə bu mərhələlər üzrə izlənilən inkişaf dinamikasından bəhs edilir.

Saxsı məmulatı istehsalının texnoloji prosesində xammalın hazırlanması - gilin seçilməsi və emalı başlanğıc və olduqca vacib mərhələdir. Bu fəsildə, xüsusi laborator analizlər əsasında seçilmiş xammalın kimyəvi tərkibinin müəyyən olunması, bəhs olunan dövrlərdə dulusçu ustaların yararlı gili fiziki-kimyəvi tərkibinə görə deyil, təcrübə əsasında uğurla müəyyən etmələri, xammalın emalı və bu zaman diqqət yetirilən məsələlər arxeoloji material və etnoqrafik məlumatlar əsasında öz əksini tapmışdır. Xammalın seçilməsi sahəsində antik və ilk orta əsrlərdə ciddi bir fərqlilik üzə çıxarılmamışdır.Yalnız xammalın emalı sahəsində dulusçuluqda iki mərhələ müəyyənləşdirilmişdir: I. Antik və ilk orta əsrlərin başlanğıc dövründə xammalın emalı; II. İlk orta əsrlərin son mərhələsində xammalın emalı. Son antik və ilk orta əsrlərin

başlanğıcında xammalın emalında çox az izlənilən geriləmə ilk orta əsrlərin sonunda daha da dərinləşmişdir. Xüsusilə, xammal hazırlanarkən əlavə edilən qatışıqlar sahəsində bu nəzərə çarpır. Həmçinin, xammalın emalının həyata keçirildiyi antik və ilk orta əsrlərdə dulus emalatxanalarının quruluşu 2009-2010-cu illərdə II Kültəpə abidəsində, 2013-2014-cü illərdə Meydantəpə antik yaşayış yerində aparılmış arxeoloji qazıntılar nəticəsində üzə çixarılan dulusçuluq emalatxanası qalıqları və etnoqrafik materiallar əsasında izah edilməyə çalışılmışdır.

İkinci fəsildə saxsı məmulatının formalaşdırılmasında tətbiq edilən tenoloji üsul və texniki vasitələr, bu sahələrdə geriləmə və inkişaf meyilləri haqqında ətraflı məlumat verilir. Dulus məmulatı istehsalı texnologiyasının demək olar ki, ən məsuliyyətli, daha çox səy və yaradıcılıq tələb edən mərhələsi məhs məmulatın formalaşdırılmasından ibarətdir. Dulus məmulatının formalaşdırılması iki vasitə ilə - əllə və dulus dəzgahı tətbiq olunmaqla həyata keçirilmişdir. Bu vasitələr də özlüyündə müxtəlif üsullardan ibarət olmuşdur.

İkinci fəsildə dulus dəzgahlarının quruluşu, bu sahədə əldə edilmiş yeni tapıntılar, məmulatın dulus dəzgahında formalaşdırılması zamanı tətbiq olunan üsullardan danışılır. Həmçinin, antik dövrdən başlayaraq dulus dəzgahından istifadə olunmasının azalması və ilk orta əsrlərdə bu prosesin daha da dərinləşməsi problemi işıqlandırılır. Ellinizm, son antik və ilk orta əsr məmulatlarının müqayisəsi əsasında bu prosesin təkcə dulusçuluq sənətinin tənəzzülü ilə əlaqələndirilməsinin düzgün olmadığı qənaətinə gəlinmişdir.

Antik və ilk orta əsrlərə aid saxsı məmulatının əksər hissəsi dulus dəzgahı tətbiq olunmadan, əllə hazırlanmışdır. Odur ki, əllə dulus məmulatı istehsalında istifadə edilən texniki üsulları geniş işıqlandırmaq daha məqsədəuyğundur. Antik və ilk orta əsr dulusçu ustaları əllə qabların formalaşdırılmasında çox müxtəlif üsullardan istifadə etmişlər. Arxeoloji qazıntılardan əldə olunan saxsı məmulatını öyrənərkən, etnoqrafik materiallara da əsaslanaraq əllə qabların formalaşdırılması texnikasında istifadə olunan üsullar və bu üsulların müxtəlif mərhələlərdə tətbiq edilmə səviyyəsi aydınlaşdırılmışdır. Əllə qabların formalaşdırılmasında izlənilən xüsusiyyətlərə əsasən, bu sahədə üç inkişaf mərhələsi müəyyənləşdirilmişdir: I. Antik dövrdə əllə qabların formalaşdırılması; II. İlk orta əsrlərin başlanğıc mərhələsində əllə qabların formalaşdırılması; III.İlk orta əsrlərin son mərhələsində əllə qabların qabların formalaşdırılması. İlk mərhələdə əllə qabların

formalaşdırılmasında yüksək inkişaf izlənilir. Çox mürəkkəb konstruktiv quruluşa malik, yüksək bədii zövqlə hazırlanmış dulus məmulatı bunu göstərir. İkinci mərhələdə artıq zərif formada hazırlanmış nümunələr nisbətən azalır, qabların formalaşdırılmasında kobudlaşma izlənilir. III mərhələni isə əllə qabların formalaşdırılmasının tənəzzülü də adlandıra bilərik. Bu mərhələdə qabların formalaşdırılmasında unudulmuş bəzi arxaik üsullardan yenidən istifadə olunmağa başlanılmışdır.

Antik və ilk orta əsrlərə aid saxsı məmulatları təkcə forma, rəng və keyfiyyətinə görə deyil, həm də üzərinin işlənməsi və naxışlarına görə də bir-birindən fərqlənirlər. Bu dövrlərə aid abidələrdən naxışsız, naxışlı və boyalı qablar üzə çıxarılmışdır. Qabların naxışlanmasında basma, qabartma, cızma, oyma, yapma, möhürləmə və boya ilə naxışlama üsulları tətbiq olunmuşdur. Belə üsullarla qabların gövdə, boğaz, ağzının kənarları, qulpları naxışlanmışdır. Bu zaman müxtəlif texniki üsullar da tətbiq edilmişdir. Bu yarımfəsildə həmçinin müxtəlif regionlar və dövrlər üzrə məmulatların naxışlanmasında mövcud fərqliliklərin çatdırılmasına çalışılmışdır. Tunc və ilk dəmir, həmçinin antik dövr gil məmulatlarının naxışlanmasında müəyyən qanunauyğunluqlar müşahidə olunmuşdur. Lakin bunu ilk orta əsr qablarında müşahidə etmək olmur. Çünki, ilk orta əsrlərdə dulusçuluq sənətində yaranmış durğunluq qabların üzərində naxışların da kobudlaşmasına səbəb olmuşdur.

Dulusçuluq sənətində texnoloji prosesin başlıca və məsul mərhələlərindən birini hazırlanan məmulatın bişirilməsi təşkil edir. Saxsı məmulatlarının keyfiyyəti xeyli dərəcədə bişmə prosesinin təşkilindən asılıdır. Hər bir dulus məmulatı nümunəsinin normal bişirilməsi həm temperatur rejimindən, həm də bişmə prosesinin davamiyyət müddətindən bilavasitə asılıdır. Dulus məmulatı istehsalında bişirilmə zamanı yüksək və nisbi temperaturun düzgün tənzimlənməsinin mənimsənilməsi dulusçuluq sənətinin inkişafında mühüm bir mərhələ təşkil edir.

Arxeoloji qazıntılar nəticəsində antik və ilk orta əsrlərə aid abidələrdən xeyli sayda saxsı məmulatı ilə yanaşı, onların bişirilməsi üçün nəzərdə tutulan çoxsaylı dulus kürələrinin qalıqları aşkar edilmişdir. Mingəçevir, Şamaxı, Qəbələ, Şabran, Quba, Beyləqan, Naxçıvan , Qax və b. bölgələrin həmdövr abidələrində öyrənilmiş kürə qalıqları buna misaldır. Bundan əlavə ayrı-ayrı ərazilərdə təbii dağıntılar və təsərrüfat işləri zamanı da xeyli kürə qalıqları da üzə çıxıb ki, bütün bunlar bütövlükdə antik və ilk orta əsrlərə aid dulus kürələrinin forma və

quruluşu barədə nisbətən aydın təsəvvür yaratmağa imkan verir. Antik və ilk orta əsrlərə aid düzbucaqlı və ellips formalı kürələrin tədqiqi təkmilləşdirilmiş dulus kürələrinin meydana gəlməsinin bütövlükdə saxsı istehsalının inkişafında xüsusi mərhələ təşkil etdiyini göstərir. Lakin, məmulatın bişirilməsi mərhələsində bunun tam əksi izlənilir. Antik dövr saxsı məmulatı əsasən qırmızı, açıq qırmızı, narıncı, sarı, açıq sarı rəngdə olub yüksək keyfiyyətlə bişirilmişdir. İlk orta əsrlərdə isə qabların bişirilməsi sahəsində geriləmə nəzərə çarpır. Zəif, aşağı keyfiyyətdə bişirilmiş saxsı nümunələrinə antik dövr məmulatları içərisində də təsadüf olunsa da, bu ilk orta əsrlərdə daha geniş hal alır.

Beləliklə, antik və ilk orta əsrlərdə Şimali Azərbaycanda dulusçuluq sənətinin texnoloji inkişafında müxtəliflik özünü göstərir. Yəni texnoloji prosesin yuxarıda bəhs etdiyimiz bütün mərhələləri bəzən eyni səviyyədə yüksəliş və ya tənəzzül yaşamamışdır. Məsələn, ellinizm dövründə dulus dəzgahından istifadənin kəskin azalmasına baxmayaraq, əllə qabların formalaşdırılmasında, xammalın seçilməsində, məmulatın bişirilməsində inkişaf izlənilir. Yaxud da, ilk orta əsrlərdə qabların formalaşdırılmasında tənəzzülün yaşanmasının əksinə olaraq dulus kürələrinin daha təkmilləşdirilmiş formaları meydana gəlmişdir.

Dissertasiya işinin **III fəsli "Antik və ilk orta əsr dulus məmulatının forma və funksional təsnifatı"** adlanır və dörd yarımfəslə bölünür.

**3.1. Antik və ilk orta əsr saxsı məmulatının qruplaşdırılması.** Arxeoloji materialların kütləviliyini və xronoloji çərçivəni nəzərə alaraq, dulus məmulatının təsnifatı zamanı müəyyən bir xüsusiyyətin əsas götürülməsi məqsədəuyğundur. Təsnifat zamanı hər bir kateqoriyaya daxil olan saxsı məmulatı qrupları xronoloji cəhətdən ardıcıl olaraq şərh edilmişdir. Çünki, yalnız belə təsnifat saxsı məmulatının konkret tarixi qruplarını müəyyənləşdirməyə və bununla da cəmiyyətin təsərrüfat və məişət həyatını, ideologiyasını, mədəniyyətini, başqa xalqlarla əlaqələrini özündə müəyyən dərəcədə əks etdirən dulusçuluq sənətinin inkişaf mərhələlərini aydınlaşdırmağa imkan verir.

Şimali Azərbaycan ərazisində antik və erkən orta əsrlər dövrü saxsı məmulatının forma və funksiya baxımından təhlili nəticəsində dulus məmulatının aşağıdakı kimi qruplarını təsnif etmək mümkündür:

1. Erkən antik dövr (ellinizm dövrü) saxsı məmulatı (e.ə. IV-I əsrlər)
2. Son antik dövr saxsı məmulatı (I-III əsrlər)

3. İlk orta əsrlərin başlanğıcında saxsı məmulatı (IV-V ərlər)
4. İlk orta əsrlərin son mərhələsində saxsı məmulatı (VI-VIII əsrlər)

Beləliklə, qeyd etdiyimiz bölgü üzrə tədqiq olunan saxsı məmulatının forma və funksional təsnifatını və təhlilini aşağıdakı yarımfəsillərdə göstəririk. Bu zaman Azərbaycanın müxtəlif bölgələrindən arxeoloji qazıntılar zamanı əldə olunmuş saxsı məmulatının mənbə kimi istifadə olunması əsas götürülmüşdür.

**3.2. Antik dövr saxsı məmulatının forma və funksional təsnifatı.** Bu yarımfəsil iki- Erkən antik dövr (ellinizm dövrü) saxsı məmulatı (e.ə. IV-I əsrlər) (3.2.1.), Son antik dövr saxsı məmulatı (I-III əsrlər) (3.2.2.) adlı hissələrə bölünür. Antik dövr dulus məmulatının çox hissəsini təsərrüfatda və məişətdə istifadə olunmuş qablar təşkil edir. Odur ki, dulusçuluq sənətində qeyd olunan dövrlərdə baş vermiş inkişaf və geriləməni bu məmulatlar əsasında daha yaxşı izləmək mümkündür.

**3.2.1. Erkən antik dövr (ellinizm dövrü) saxsı məmulatı (e.ə. IV-I əsrlər)** Şimali Azərbaycan ərazisində erkən antik dövr abidələrində aparılan arxeoloji tədqiqatlar və təsadüfi tapıntılar nəticəsində müxtəlif çeşidli saxsı məmulatları əldə edilmişdir. Bu nümunələrin təsnifatı və müqayisəli təhlili dövrün tarixi və mədəni prosesləri ilə bağlı ortaya çıxan bir sıra suallarla əlaqədar zəngin məlumatlar verir.

Tədqiqatçılar tərəfindən saxsı məmulatının təsnifatı aparılarkən - bu məmulatların təsərrüfat və məişətdə hansı məqsədlə işlədilməsi, forması, gilinin tərkibi, hazırlanma texnologiyası, bəzəkləri və b. xüsusiyyətləri əsas götürülmüşdür. Bu xüsusiyyətlərin heç biri təklikdə saxsı məmulatının təsnifatı üçün yeganə əsas ola bilməz. Saxsı məmulatı təsnif edilərkən bir çox başqa xüsusiyyətlərə də diqqət yetirilməlidir. Yalnız bu yolla saxsı məmulatının müxtəlif texnoloji, tipoloji və incəsənət xüsusiyyətlərinə dair tam təsəvvür yaratmaq olar.

Erkən antik dövr saxsı məmulatının böyük əksəriyyəti əldə, dulus dəzgahı tətbiq olunmadan istehsal edilmişdir. Lakin buna baxmayaraq, onlar yüksək bədii zövqlə və zərif hazırlanmışdır. Bu dövrdə dulusçu ustalar küp, küpə, lüləkli, süddanbiçimli qablar, piyalələr, tək və üç ayaqlı vazalar, matralar, zoomorf və antropomorf saxsı məmulatı və s. hazırlamışlar. Həmçinin, inşaat keramikası istehsalına başlanılmış və bu sahədə ixtisaslaşma olmuşdur. Qədim Albaniya şəhərlərində, xüsusilə də

onun paytaxt şəhəri Qəbələdən xeyli sayda kirəmitlərin aşkar edilməsi bunu göstərir.

Estetik, həmçinin texniki məqsədlə qabların səthinin anqoblanması və cilalanması erkən antik dövr saxsı məmulatı üçün səciyyəvidir. Təyinatı və formasından asılı olaraq qabların əsasən görünən hissələri – gövdəsi, çiyinləri, ağzının kənarı, boğazı və qulpları cızma, basma, yapma, çərtmə və boya naxışlarla bəzədilmişdir.

Bir çox xüsusiyyətləri diqqətə alaraq erkən antik dövrə aid saxsı məmulatını təyinatına görə üç əsas kateqoriyaya ayırmaq olar: a) təsərrüfat və məişətdə işlənən qablar; b) antropomorf və zoomorf saxsı məmulatı; c) inşaat keramikası. Bu kateqoriyalara aid saxsı məmulatı öz növbəsində forma rəngarəngliyi baxımından müxtəlif qruplara və yarımqruplara, onlar da ayrı-ayrı tiplərə, yarımtip və variantlara bölünür.

Şimali Azərbaycanın bütün ərazisi üçün səciyyəvi olan formaca oxşar dulus məmulatı, onların yayılma arealında vahid mədəniyyərin mövcudluğunu göstərir. Saxsı məmulatlarında ümumi xüsusiyyətlər izlənilsə də, zaman və məkan kontekslərində yerli ənənələr lokal variantların yaranmasına səbəb olmuşdur. Erkən antik dövr dulus məmulatlarının bədii-texniki, tipoloji və texnoloji xüsusiyyətlərinin təhlili, Şimali Azərbaycan ərazisində vahid mədəniyyətin mövcud olduğunu, müxtəlif regionlarda yerli istehsal ənənlərinə uyğun olaraq isə, lokal variantların meydana gəldiyini göstərir.

Erkən antik dövr saxsı məmulatlarının öyrənilməsi zamanı əvvəlki tarixi ənənələrin izlənilməsi ilə yanaşı, yeni formalı saxsı məmulatlarının meydana gəlməsi də müşahidə olunur. Bu məmulatlarda yerli, antik və İran mədəniyyətinin təsirləri izlənilir.

**3.2.2. Son antik dövr saxsı məmulatı (I-III əsrlər).** Bəhs edilən dövrün dulus məmulatlarının forma və funksional təhlilinə əsasən onlar: a) təsərrüfat keramikası; b) məişət keramikası; c) antropomorf və zoomorf saxsı məmulatı; d) inşaat keramikası kimi təsnif olunmuşdur.

Ellinizm dövründən fərqli olaraq, son antik dövrdə dulus məmulatı istehsalında geriləmə müşahidə olunur. Zərif hazırlanmış və mürəkkəb qurluşlu qabların eramızın I əsrindən etibarən tədricən sıradan çıxmasını izləmək mümkündür. Bundan sonrakı qabların eramızdan əvvəlkilərə nisbətən sadələşməsi, bəzi hallarda kobudlaşması qabarıq şəkildə nəzərə çarpır. Bunu süddanbiçimli qabların tədqiqi zamanı daha aydın görmək mümkündür. Ümumilikdə, son antik dövr saxsı məmulatının forma müxtəlifliyi, kəmiyyət və keyfiyyət baxımından təhlili bu dövrdə

dulusçuluq sənətində baş vermiş inkişaf və geriləməni müəyyənləşdirməyə imkan verir. Bu dövrün saxsı məmulatı içərisində süddanbiçimli qablar, küplər, küpələr, bardaqlar, vazalar, piyalələr və s. çoxluq təşkil edir.

Küplər iri və orta həcmli, armudvari və şarşəkilli xaşal gövdəlidir. Əsasən qulpsuz hazırlanan küplərin əksəriyyəti qırmızı rəngdədir, üzəri saya, ağız kənarları batıq naxışlar vardır. Onlardan bəzisinin çiyin hissəsində əkinçiliklə əlaqədar olan naxışlara da təsadüf edilir.

Küpələr həcmlərinə, gövdələrinin şarvari və uzunsov formaya malik olması, boğazlarının konusvari və ya silindirik, dar və ya gen olmasına görə bir-birindən fərqlənir.

Süddanbiçimli qablar - sərt künclü gövdələri, gövdədən irəliyə çıxmış ördəkburun tipli və şişman gövdəli nümunələrdən ibarətdir. Hər iki yarımqrupa daxil olan qabların boğaz hissələri cızma üsulu ilə çəpinə və paralel xətlərdən ibarət naxışlarla, həmçinin yapma üsulu ilə vurulmuş düyməciklərlə bəzədilmişdir.

Bardaqlar bir qayda olaraq tək qulplu olub, uzunsov və şarşəkilli gövdəlidirlər. Oturacaqları düz, ağız kənarları isə dairəvi və novludur. Rəngləri əsasən sarı və çəhrayıdır.

Tək və üç ayaqlı vazalar onlara əlavə edilmiş detallar və konstruktiv quruluşlarına görə bir-birindən fərqlənir. Boşqab formalı gövdəsi olan vazalarla yanaşı, piyalə formalı gövdəyə malik nümunələr də çoxdur. Üzərləri yaxşı hamarlanmış və cilalanmışdır.

Piyalələr boz, qara, sarı, qırmızı və qəhvəyi rəngdə olmaqla zərif hazırlanmış, üzərləri yaxşı hamarlanmış, bəzən də cilalanmışdır. Formalarına görə də, piyalələr geniş çeşiddə hazırlanmışdır. Onlar əsəasən gövdələrinin quruluşuna görə iki yarımqrupda təmsil olunur – gövdəsi yarımsferik formalı və ağız hissəsi enli, gövdə hissəsi qabarıq çıxıntılı piyalələr.

**3.3. İlk orta əsrlərin başlanğıcına (IV-V əsrlər) aid dulus məmulatının forma və funksional qruplaşdırılması.** Bəhs edilən dövrün dulus məmulatının daha əhatəli təsnifatı onları: a) təsərrüfat və məişətdə işlədilən saxsı məmulatı; b) antropomorf və zoomorf saxsı məmulatı; c) uşaq oyuncaqları; d) inşaat keramikası kimi qruplaşdırmağa imkan verir. İlk orta əsrlərin başlanğıcına aid dulus məmulatının tədqiqi göstərir ki, qabların tip və kəmiyyət etibarilə çoxalmasına baxmayaraq, onların formaları, hazırlanma üsulları, naxışlanması, bişmə keyfiyyətləri pisləşir və ümumiyyətlə dulusçuluq sənətində tənəzzül müşahidə olunur.

Bu dövr dulus məmulatının içərisində dulus dəzgahında hazırlanmış nümunələrə nadir hallarda rast gəlinir.

Təsərrüfat və məişətdə işlənən geniş çeşidli dulus məmulatlarının – su, süd və digər maye saxlanılan qabların, camların, çıraqların, zoomorf nümunələrin, oyuncaqların və s. öyrənilməsi onlara xas xüsusiyyətləri, ümumi və lokal variantları müəyyənləşdirməyə imkan vermişdir.

Bardaqlar saxsı məmulatı içərisində miqdarca çoxluq təşkil edir və formalarına görə də müxtəlifdir. Onlar əsasən uzunsov gövdəli və ağız kənarı dairəvi, xaşal gövdəli və lüləkli, armudvari gövdəli və ağzının novlu nümunələrdən ibarətdir. Üçüncü qrup bardaqların içərisində ayaq və əl dulus çarxında formalaşdırılmış nümunələr də vardır. Qablar müxtəlif üsullarla vurulmuş naxışlarla bəzədilmişdir. Batıq və yapma naxışlara bardaqlar üzərində daha çox rast gəlinir.

Süd məhsullarının emalı və saxlanılması məqsədilə istifadə olunan müxtəlif çeşidli məişət əşyaları içərisində sərnic tipli qablar üstünlük təşkil edir. Sərniclər irihəcmli və sadə naxışlıdır. Bunların enli boğazı, iki qulpu və yastı oturacağı vardır. Sərnicləri xarici görünüşlərinə görə üç yerə bölmək olar. Birincilərin qulpları qabın ağzının kənarına bitişik olub, gövdələri müxtəlif formalıdır, ikincilərin gövdəsi yumurtaşəkillidir, üçüncülərin gövdəsi isə müəyyən bir quruluşa malik olmayıb qulpları gövdəsinə birləşmişdir.

Dopular geniş yayılmış qab tiplərindəndir. Onlar qulpsuzdur, kiçik və orta tutumludur. Dopular xarici görünüşlərinə görə boğazı azacıq boğmalı, gövdəsi xaşal və üzərinə qazıma üsulu ilə bir-birinə paralel dairəvi xətlərlə naxış vurulmuş, hündür və darboğazlıdır. Onların oturacağı yastıdır. İkinci qrupa aid dopular birincilərə nisbətən kobud olsa da, onların gilində müxtəlif qarışıqlara rast gəlinmir.

Kuzələr qabarıq gövdəyə və yastı oturacağa malik olub, ağızları novlu, qulpları isə yarımdairəvidir. Yaxşı bişirilmiş, üzərlərinə nəbati və həndəsi naxışlar vurulmuş kuzələr ilk orta əsrlərin son mərhələsi üçün xarakterikdir.

Çaynikvari qablar kiçik həcmli və ya yastı oturacaqlıdırlar. Üstü yaxşı cilalanmış çayniklərin ağızları ellips formalıdır. Qulpu yandandır. Əldə hazırlandıqları üçün divarları qabarıqdır.

Çıraqları forma etibarı ilə əsasən iki qrupa bölünür: 1. Vazayaoxşar çıraqlar. 2. Lüləkli çıraqlar. İlk orta əsrlərin başlanğıcında əsasən lüləsiz, kasavari, ağzı dairəvi, ellips formalı və vazayaoxşar

çıraqlar geniş yayılmışdır. Bununla yanaşı, “qara çıraq” adı ilə tanınan lüləkli çıraqların ilk nümunələri də ortaya çıxmışdır.

Qabların formalarından asılı olmayaraq qapaqlar əsasən müstəvi formada olur. Boru formalı, tutacaqlı qulplu, yarımdairəvi qapaqlar iri qablara, müxtəlif formalı çıxıntılardan ibarət olan qapaqlar isə xırda və orta həcmli qablara aiddir. İkinci qrup qapaqların qabların ağzını kip örtmək üçün bəzilərinin alt səthində gəzlər açılmışdır.

Şimali Azərbaycanın ilk orta əsrlərə aid gil uşaq oyuncaqları əsasən şaxşaxalar, antropomorf və zoomorf fiqurlar və kiçik qab-qacaqlardan ibarətdir. Bu saxsı nümunələri əsasən kobud hazırlanmışdır.

**3.4. İlk orta əsrlərin son mərhələsinin (VI-VIII əsrlər) saxsı məmulatının forma və funksional bölgüsü.** Bu mərhələnin dulus məmulatı ilə, ilk orta əsrlərin başlanğıcına aid dulus məmulatı arasında forma və funksional baxımdan böyük oxşarlıq vardır. Bununla yanaşı məmulatların formalaşdırılması və bişirilmə keyfiyyəti bir-birindən fərqlənir. İlk orta əsrlərin son mərhələsinin dulus məmulatları, başlanğıc mərhələyə nisbətən xeyli kobud və keyfiyyətcə aşağıdır. Saxsı məmulatı əsasən əllə formalaşdırılmış, bu zaman bəzi arxaik – yapma və toxuma üsullarından istifadə olunmuşdur. Açıq ocaqlarda qabbişirmə adətinə də təsadüf edilir. Bu dövrün saxsı məmulatları əsasən, açıq-qırmızı, qırmızı, həmçinin boz və qara rəngli, üzəri qazma, yapma, basma və möhürləmə üsulu ilə işlənmiş nümunələrdir. Saxsı məmulatı məişətdə və təsərrüfatda işlədilən müxtəlif çeşidli qablardan, zoomorf qablardan, uşaq oyuncaqları və inşaat keramikasından ibarətdir.

Küpələr ilk orta əsrlərin son mərhələsində də, məişətdə və əhalinin təsərrüfat həyatında mühüm yer tutmuşdur. Bu mərhələ üçün xarakterik olan küpələrin gilinin tərkibində qismən dəyişiklik olmaqla əvvəlkinin təkrarı hesab olunmalıdır. Küpələri fərqləndirən xüsusiyyətlərdən biri də orijinal naxışlama – relyef və şüyrəli xətlərdən çəkilmiş tağvari naxışlar tutur. Onların arası yolkavari, nöqtəli, maili, torşəkilli, dalğavari və üçbucaqşəkilli, bəzən isə basma dairəvi bəzəklərlə doldurulmuşdur.

İlk orta əsrlərin son mərhələsinə aid materialları içərisində vaza tipli qablara və onların fraqmentlərinə də təsadüf edilir. Bu mərhələdə üçayaq vazalar istehsalatdan çıxıb, təkayaq vazalardan istifadə isə xeyli dərəcədə məhdudlaşıb. Təqribən VI əsrin sonu - VII əsrin əvvəllərindən etibarən təkayaq vazalar da istehsalatdan çıxıb. İlk orta əsr materialları içərisində təkayaq vazaların qədəh formalı nümunələrinə də təsadüf

edilir.Bu cür vazaların kiçik oturacağı, nisbətən xaşal gövdəsi və kənara geniş açılan ağzı var.

İlk orta əsrlərin son mərhələsinə aid kiçik və orta həcmli dopular xarici görünüş baxımından, boğazları azacıq bükməli, xaşalvari gövdəli, qulplu və qulpsuz, həmçinin hündür, qulplu, dar boğazlı və yastı oturacaqlı formadadır. Gövdəsi rombvari formaya malik, düz oturacaqlı nümunələr də az deyil.

Saxsı məmulatı içərisində ağzının diametri 28 sm-dən 45 sm-ə kimi, su tutumu 2 litrdən 6 litrədək olan qazanlar əksəriyyət təşkil edir. Belə qazanlar məişətdə geniş tətbiq olunmuşdur. İlk orta əsr təbəqələrindən aşkara çıxarılmış qazanlardan bəzilərinin oturacağı yastıdır. Onların ağızlarının kənarı xaricə doğru qatlanmışdır. Kənarlarında 4 ədəd çıxıq var. Belə çıxıqlar həm tutacaq rolunu ifa edir, həm də həmin çıxıqlardan başlıca olaraq qabı qaldırmaq, yuduqdan sonra qurutmaq üçün ağzı aşağı qoymaq və s. məqsədlər üçün istifadə edilirdi.

Kuzələr qeyd olunan mərhələyə aid qab nümunələri içərisində əhəmiyyətli yer tutur.Bunların gövdələri armudvari, ağızları novlu, qulpları yarımdairəvi, oturacaqları yastı dabanlıdır. Yastı oturacaqlı kuzələrin əsasən gözə çarpan səthi naxışlanmış, ağız kənarlarına isə bir qayda olaraq iki kiçik düyməcik yapışdırılmışdır. Kuzələrin bəzilərinin boğazı dar və uzunsov, bəzilərininki isə enli və yastıdır.

Su üçün işlədilən kiçik həcmli, qara rəngli dolçalar bəhs olunan mərhələ üçün xarakterikdir. Gövdələri xaşal, oturacaqları yastı olan bu tip qabların qulpları yarımdairəvidir. Xarici görünüşlərinə görə bu nümunələr, Şimali Azərbaycanın qədim dövr abidələrindən əldə edilmiş dolçalarla oxşardır. Yeganə əsas fərq, ilk orta əsrlərin son mərhələsinə aid dolçalarda qulpların birbaşa ağız kənarına deyil, birqədər ağağıda yerləşməsidir.

Məişət qabları içərisində çox təsadüf olunan bərnilər əsasən yastı oturacaqlı, ağızları dairəvi, gövdələri isə uzunsov və xaşal formasındadır. Üzərləri əsasən naxışsızdır. Bərnilər tərkibinə qum qatılmış gildən kobud formalaşdırılmış və pis bişirilmişdir.

Şamdanlar xarici görünüşlərinə görə müxtəlifdir. Bunlar əsasən dördbucaqlı kiçik pramidaformalı və şam keçirmək üçün bir neçə deşiyi olan şamdanlardan ibarətdir. Yan səthlərindən dairəvi, üçbucaq və dördbucaqlı birbaşa açılmış müxtəlif ölçülü deşikləri olan şamdanlar da vardır. İkimərtəbəli bu növ şamdanların həm üst, həm də alt mərtəbələrində dörd tərəfdən deşik açılmışdır. Bunlar digər nümunələrə

nisbətən çox uzunsov olub, qazıma üsulu ilə vurulmuş bir-birinə paralel qarışıq naxışlarla bəzədilmişdir.

Dissertasiyanın **nəticə** hissəsində, Şimali Azərbaycan ərazisində antik və ilk orta əsrlərə aid abidələrdə aparılan arxeoloji tədqiqatlar zamanı əldə edilmiş dulus məmulatlarının təhlili əsasında gəlinmiş nəticələr öz əksini tapır. Aşkar edilmiş məmulatların təhlili göstərir ki, antik və ilk orta əsrlərdə dulusçuluq sənəti cəmiyyətin iqtisadi həyatında çox mühüm yer tutmuşdur. Tədqiqiqat nəticəsində antik və ilk orta əsrlərdə bu sənət sahəsində üç inkişaf mərhələsi müəyyən edilmişdir:

I. Antik dövr dulus məmulatı istehsalı səviyyəsi

II.İlk orta əsrlərin başlanğıcında (IV-V əsrlər) dulus məmulatı istehsalı səviyyəsi

III.İlk orta əsrlərin son mərhələsində (VI-VIII əsrlər) dulus məmulatının istehsalı səviyyəsi

Antik dövr Şimali Azərbaycanın dulusçuluq istehsalı sahəsində, bəzi istisnalar nəzərə alınmazsa ( dulus dəzgahından istifadənin kəskin azalması) yüksəliş dövrü olmuşdur. Bunu antik dövrə aid, bədii-texniki baxımdan yüksək zövqlə və geniş çeşiddə hazırlanmış dulusçuluq məmulatları sübut edir. Lakin antik dövrün sonlarından bu sənət sahəsində başlanan durğunluq, bəzi hallarda geriləmə, sonrakı mərhələlərdə tənəzzüllə əvəz olunmuşdur. İlk orta əsrlərin əvvəli dulusçuluq məmulatı istehsalında artıq bütün istiqamətlərdə tənəzzül dövrü, İlk orta əsrlərin son mərhələsi isə, tənəzzülün dərinləşməsi dövrü kimi xarakterizə olunur.

Dulusçuluq sənətində antik dövrün sonlarından başlayan və ilk orta əsrlərdə daha da dərinləşən tənəzzülün səbəbləri müxtəlif amillərlə bağlı olmuşdur. Müharibələr, hücumlar, işğallar bütün dövrlərdə iqtisadiyyata, o cümlədən sənətkarlığa ağır zərbə vurmuşdur. Bu konteksdən dulusçuluq sənətinə arxeoloji aspektdən nəzər saldıqda materialların təhlili göstərir ki, yuxarıda sadalanan amillər yalnız keyfiyyəti aşağı salmışdır. Dulusçuluq məmulatlarına olan daimi tələbat istehsalın kəmiyyətinə təsir göstərməmiş, əksinə artan tələbat kəmiyyətin yüksəlməsinə, bu isə öz növbəsində keyfiyyətin getdikcə daha da enməsinə gətirib çıxarmışdır. Həmçinin, Şimali Azərbaycanın demək olar ki, bütün bölgələrində zəngin gil yataqlarının olması digər sənət sahələrinə - metalişləmə, şüşə istehsalı, zərgərlik və s. nisbətən dulusçuluq sənətinin daha çox naturallaşmasına səbəb olmuşdur.

Dissertasiya işində ilk dəfə olaraq istehsal texnologiyasının müxtəlif mərhələləri üzrə inkişaf müəyyənləşdirilmişdir. Tədqiqatlar sübut edir ki, müxtəlif xronoloji mərhələlərdə dulus məmulatının forma dəyişikliyi onların funksional roluna ciddi təsir göstərməmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır.**

1. Antik və ilk orta əsrlərdə Şimali Azərbaycanda keramika istehsalı texnologiyasının bəzi məsələlərinə dair // AMEA Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, Bakı, 2015 №2 səh. 74-79.
2. Cəlilabadda küp qəbirdən tapılmış antropomorf gil qab.Tarix və onun problemləri. BDU-nun nəşri, Bakı, 2015, № 2, səh. 316-320.
3. Antik və ilk orta əsrlərdə Şimali Azərbaycanda gil məmulatlarının formalaşdırılmasında tətbiq olunan üsullar. Azərbaycan Pedaqoji Universitetin xəbərləri, Bakı 2015 №3. səh.143-149.
4. Dulusçuluq sənətində xammalın seçilməsi və hazırlanması mərhələsi.Tarix və onun problemləri. BDU-nun nəşri, Bakı, 2016, № 1, səh. 274-281.
5. Найденные глиняные детские игрушки, относящиеся средневековому периоду Северного Азербайджана. **Гілея:** науковий вісник: збірник науковыих праць / гол. ред. В.М.Вашкевич. – К.: "Видавництво" "Гілея" 2016. – Вип. 107 (№4) – 483, c. 143-146.
6. Antik və ilk orta əsrlərə aid süddan biçimli saxsı qablar. Azərbaycan arxeologiyası. "Xəzər Universitetinin nəşriyyatı". Bakı, 2016, cild 19 № 2, səh. 43-51.
7. Cəlilabad rayonu ərazisində aşkarlanan küp qəbirlərin saxsı məmulatı. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 93 illik yubileyinə həsr edilmiş Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı. 29-30 aprel 2016-cı il, Bakı-Azərbaycan, səh. 1166-1168.
8. Şimali Azərbaycanda dulusçuluq texnologiyasına aid yeni tapıntı. Tarix və onun problemləri. BDU-nun nəşri, Bakı, 2017, № 1, səh. 245-249.

*К.А.Керимова*

## Этапы развития производства гончарных изделий в Северном Азербайджане ( античность и ранние средние века)

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, заключения, списка использованной литературы, списка сокращений и иллюстраций.

Во введении нашли отражение актуальность темы, хронологические рамки, цели и задачи, источниковедческая база, научная новизна и практическое значение, апробация и структура исследования.

В I главе «Исследование античных и раннесредневековых гончарных изделий в Северном Азербайджане» освещены археологические раскопки памятников античного и раннесредневекового периодов на территории Северного Азербайджана, уровень исследования найденных керамических изделий, как самых массовых материально-культурных образцов.

II глава "Технологические особенности в производстве античной и раннесредневекового гончарного изделия в Северном Азербайджане" делится на две полглавы: "Технология производства гончарных изделий античного периода"(2.1), "Технологические особенности раннесредневекового керамического производства"(2.2). В главе исследованы особенности технологического производства гончарных изделий, отдельные этапы производства, выявлены тенденции его развития и упадка.

III глава "Форма и функциональная классификация античных и раннесредневековых гончарных изделий» делится на четыре полглавы: Группирование керамических изделий античности и ранних средних веков"(3.1), "Формы и функциональная классификация керамических изделий античного периода" (3.2), "Форма и функциональная назначение керамических изделий раннего периода ранних средних веков (IV-V вв.)" (3.3), "Форма и функциональное назначение керамических изделий заключительного этапа ранних средних веков (VI-VIII вв.)" (3.4).

В заключительной части диссертации определены этапы развития производства гончарных изделий античности и ранних сред-

них веков на основе археологических исследований.

***K.A.Kerimova***

**Development stages of pottery protuct in Northern Azerbaijan (Antique and Early Medieval period)**

**SUMMARY**

The dissertation work consists of the adopting abridgements, introduction, three chapters, conclusion, the list of used literature, the illustrations.

In the introduction it deals with the topicality of the theme, chronological frame, goals and duty, source base of the theme, level of its studying, theoretical-methodical base, scientific-practical importance, approbation and structure.

The first chapter of the dissertation work is called "The research of Antique and Early Medieval pottery product in Northern Azerbaijan". Archaeological excavations, research level of pottery product which concerned Antique and Early Medieval period of Northern Azerbaijan had been lightened in this chapter.

The second chapter is called "Technological characters of pottery production in Northern Azerbaijan", consists of two sub-chapters: "Preparing technology of Antique period pottery" (2.1.), "Technological characters of Early Medieval pottery products" (2.2.). Technological characters had been researched by development stage with chronological point of view, also, had been defined development and decline inclinations.

The third chapter of the dissertation works called "Form and functional classification of Antique and Early Medieval pottery products" and consists of four sub-chapters: "Classification of Antique and Early Medieval pottery products" (3.1.), "Form and functional classification of Antique period pottery products" (3.2.), "Form and functional classification of the beginning of Early Medieval period pottery products (IV-V centuries)" (3.3.), "Form and functional classification of late stage of Early Medieval period pottery production (VI-VIII centuries" (3.4.).

In the conclusion of dissertation had been defined development stage of pottery products of Antique and Early Medieval period on the basis of archaeological materials.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

***На правах рукописи***

**КЁНУЛЬ АЛИМ кызы КЕРИМОВА**

# ЭТАПЫ РАЗВИТИЯ ПРОИЗВОДСТВА ГОНЧАРНЫХ ИЗДЕЛИЙ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ
## (античность и ранние средние века)

**5505.02 – Археология**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ - 2017**